MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ
TƏLƏBƏLƏRLƏ İŞ VƏ
TƏDBİRLƏRİN TƏŞKİLİ ŞÖBƏSİ

# TƏLƏBƏLƏRLƏ İŞ VƏ TƏDBİRLƏRİN TƏŞKİLİ ŞÖBƏSİ





*“Bizim bu günkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir. Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir.”*

*Azərbaycan xalqının Ümummilli Lideri*
*HEYDƏR ƏLİYEV*



*“Mən bütün gənclərə üz tutub deyirəm ki, təhsilə çox böyük fikir versinlər. Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar. İstənilən sahədə işləyən gənclər çalışmalıdırlar ki, öz peşəkarlıqlarını artırsınlar.”*

*Azərbaycan Respublikasının Prezidenti*
*İLHAM ƏLİYEV*



*“Əziz gənclər,*
*Siz – ölkəmizin gələcəyisiniz. Mən əminəm ki, siz öz zəkanız, biliyiniz, bacarığınızla, qələbə və nailiyyətlərinizlə xalqımızı daim sevindirəcək və Azərbaycanın inkişafına layiqli töhfənizi verəcəksiniz.”*

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti*
*MEHRİBAN ƏLİYEVA*

# MƏZMUN


01 Ümumi baxış

02 Missiya və vizyonumuz

03 Fəaliyyət istiqamətlərimiz

04 Dəyərlərimiz

05 MDU Tələbə təşkilatları

06 Əməkdaşlıq etdiyimiz qurumlar

07 Komandamız

08 Bizimlə əlaqə




# ÜMUMİ BAXIŞ

Tələbələrlə iş və tədbirlərin təşkili şöbəsi (Şöbə) Mingəçevir Dövlət Universitetinin (MDU) Elmi Şurasının 29 aprel 2024-cü il tarixli 55 nömrəli qərarına əsasən yaradılmışdır.

Şöbə, tələbələrin universitet həyatında daha fəal iştirakını təmin etmək, onların akademik və sosial inkişafına dəstək olmaq, eyni zamanda müxtəlif tədbirlərin təşkili və koordinasiyası ilə tələbə cəmiyyətini aktivləşdirmək məqsədilə fəaliyyət göstərir.

Şöbə, tələbələrin akademik, sosial və mədəni inkişafına töhfə vermək məqsədilə genişmiqyaslı fəaliyyət istiqamətlərini əhatə edir. Bu fəaliyyətlər çərçivəsində tələbələrin universitet həyatına daha yaxından inteqrasiyası, onların intellektual və yaradıcı potensialının üzə çıxarılması, asudə vaxtlarının səmərəli təşkili və ictimai fəallığının artırılması əsas prioritetlərdən biridir.

Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktları, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin təlimatlarını, MDU-nun nizamnaməsini, universitet rəhbərliyinin qərar və göstərişlərini, eləcə də öz Əsasnaməsini rəhbər tutur. Bu çərçivədə Şöbə MDU-nun strukturuna daxil olan digər qurumlarla, dövlət və yerli özünüidarəetmə orqanları, eləcə də müxtəlif hüquqi və fiziki şəxslərlə sıx əməkdaşlıq edərək fəaliyyətini həyata keçirir.

# ŞÖBƏNİN STRUKTURU



# MİSSİYA VƏ VİZYONUMUZ

| | |
|---|---|
| **MİSSİYA** | Tələbələrin peşəkar və şəxsi inkişafını dəstəkləyərək onların təhsil müddətində müasir tendensiyalara uyğun təcrübə imkanlarını artırmaq üçün körpü olmaq, aktiv və hərtərəfli bir cəmiyyət təcrübəsi qurmağa təşvik etməklə yaradıcı potensiallarını inkişaf etdirmək. |
| **VİZYON** | Tələbələrimizin vətənpərvər, vicdanlı və sosial ruhda ölkəmizin inkişafında pay sahibi olmaqlarına töhvə vermək. |

Back to **Agenda**

# FƏALİYYƏT İSTİQAMƏTLƏRİMİZ

01 Klub və təşkilatların idarə edilməsi

02 Tədbir və proqramların təşkil olunması

03 Tələbə əməkdaşlığı və qrup işində iştirak

04 Tələbələrə dəstək və məsləhət xidməti

05 Akademik dəstək və mentorluq

06 Tələbələrdə liderlik inkişafının təmin edilməsi

# DƏYƏRLƏRİMİZ

### Nəticəyönümlülük

Şöbə həyata keçirdiyi hər bir fəaliyyətin uğurlu nəticəsinə can atır

### Davamlı inkişaf

Şöbə tələbələrin şəxsi və peşəkar inkişafına dəstək olmaq üçün təlim imkanları təqdim edir

### Sosial inklüzivlik

Şöbədə cəmiyyətə və ətraf mühitə qarşı məsuliyyət hissi var. Sosial məsuliyyət layihələrində iştirak edir və cəmiyyətin rifahına töhfə verir

### Məsuliyyətlilik

Şöbə öz işinə və götürdüyü öhdəliyə müvafiq yüksək məsuliyyəti bütün maraq qruplarında yaradır və mövcudluğunu təmin edir

### İnnovasiya

Şöbə rəqəmsal dövrdə yenilikçi və effektiv həllər axtararaq xidmətlərini təkmilləşdirir

### Dinamizm

Şöbə daim dəyişən mühitin tələblərinə cavab verən kadr hazırlığını təmin edir

### Peşəkarlıq

Şöbə biznes etikasına və ən yüksək peşəkar standartlara riayət edir. Müraciətçilərlə hörmətli, dürüst və ədalətli davranır

### Vətənpərvərlik

Şöbə bacarıqlı tələbə hazırlığı ilə yanaşı, o tələbələrin gələcəkdə Qarabağın dirçəldilməsi istiqamətində yetişdirir

# DƏYƏRLƏRİMİZ

Tələbələrlə iş və tədbirlərin təşkili şöbəsinin dəyərləri şöbənin missiyasına, məqsədlərinə və mədəniyyətinə əsaslanır. Bu dəyərlər Şöbənin fəaliyyətini formalaşdırır və uğurla xidmət edən bir quruma çevirir.

# TƏLƏBƏLƏRİN MARAQLARININ ÖYRƏNİLMƏSİ

*MDU-nun tələbəyönümlü fəaliyyətinin inkişafı çərçivəsində, tələbələrin maraq və ehtiyaclarını daha dərindən öyrənmək məqsədilə şöbəmiz tərəfindən fəaliyyət planına əsasən hər tədris semestrinin əvvəlində sorğuların keçirilməsi planlaşdırılmışdır.*
*Bu sorğular vasitəsilə gənclərin maraq dairələrinin, asudə vaxtlarını necə dəyərləndirdiklərinin, hansı sahədə ixtisaslaşmaq istədiklərinin, istifadə etdikləri media resursları və digər vacib məqamların araşdırılması nəzərdə tutulmuşdur.*
*Bu yanaşma tələbələrin maraq və ehtiyaclarına uyğun tədbir və layihələrin təşkilinə imkan yaratmaqla yanaşı, onların akademik və sosial inkişafına da töhfə verməyi hədəfləyir.*

# MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN TƏLƏBƏ TƏŞKİLATLARI




**Tələbə Gənclər Təşkilatı**

**MDU Mühəndislik fakültəsi, KM 22 saylı qrup tələbəsi**

*Sədr*




**“Bir” Könüllü Tələbə Təşkilatı**

**MDU İqtisadiyyat və idarəetmə fakültəsi, M23.2 saylı qrup tələbəsi**

*Sədr*

## TƏLƏBƏ GƏNCLƏR TƏŞKİLATI

- İntellektual oyunlar klubu
- CreArt klubu
- Conversation club
- Debat klubu
- Əyləncə klubu
- Yaşıl könüllülər dərnəyi
- Kitab klubu
- İdman klubu
- MUN
- Tear klubu
- İT könüllülər dərnəyi

## “BİR“ KÖNÜLLÜ TƏLƏBƏ TƏŞKİLATI

- Bir əyləncə klubu
- Bir kitab klubu
- Bir təlim və inkişaf klubu
- Bir idman klubu
- Bir ekoloqlar klubu

# ƏMƏKDAŞLIQ ETDİYİMİZ QURUMLAR

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

AZE Gənclər və İdman Nazirliyi

Azərbaycan Gənclər Fondu

ATGTi Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı

RİİB Regional İnkişaf İctimai Birliyi

Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası • Azerbaijan Canoe and Rowing Federation

Dövlət Məşğulluq Agentliyi

AZE Gənclər və İdman Nazirliyi Mərkəzi Aran

Gənclərin İnkişaf və Karyera Mərkəzi

Uşaq və Ailələrə Dəstək Mərkəzi

bir tələbə könüllü

Mingəçevir gənclər evi

ASAN Könüllüləri • ASAN Volunteers

Azərbaycan Könüllü Təşkilatları İttifaqı

"Ailə və Uşaqların Sosial Problemlərinin Həllinə Dəstək" İctimai birliyi

İKA İdman könüllüləri və azarkeşləri

İŞIQLI GƏLƏCƏK Gənclər İctimai Birliyi

bir

# KOMANDAMIZ



# BİZİMLƏ ƏLAQƏ:

MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ
TƏLƏBƏLƏRLƏ İŞ VƏ
TƏDBİRLƏRİN TƏŞKİLİ ŞÖBƏSİ

talaba.tadbir@mdu.edu.az

MDU Tələbələrlə iş və tədbirlərin təşkili şöbəsi

@mdutitts

http:// www.mdu.edu.az

Əsas tədris binası, 106-cı otaq





GƏNCLƏR GƏLƏCƏYİMİZİN MEMARI,
SABAHIMIZIN TƏMİNATIDIR!